## Laçın-Xankəndi yolundan gün ərzində RSK-nın 79 maşını keçib



**Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan ərazilərdə faydalı qazıntı yataqlarının qanunsuz istismarına etiraz olaraq aksiyanın keçirildiyi Laçın-Xankəndi yolundan Rusiya sülhməramlı kontingentinə (RSK) məxsus avtomobillərin sərbəst keçidi davam edir.**

APA-nın Şuşaya ezam olunan müxbiri xəbər verir ki, RSK-ya məxsus 2 yük maşını Xankəndiyə maneəsiz keçib.

Səhər saatlarından indiyədək RSK-ya məxsus 79 maşın aksiya keçirilən ərazidən maneəsiz keçid edib.



## Martın 23-də Ramazan ayı başlayacaq

**Martda Azərbaycanda Ramazan ayı başlayacaq.**

Qafqaz Müsəlmanları İdarəsi xəbər verilir ki, martın 23-də Azərbaycanda Ramazan ayı başlayacaq.

*Aprelin 21 və 22-si isə Ramazan bayramı qeyd ediləcək.*


№ 41 (5802) 2023-cü il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 4 mart 2023-cü il (şənbə)





# İkinci bilet pulsuzdur

## AZAL İstanbul uçuşlarında bahar aksiyasına başlayıb

**"Azərbaycan Hava Yolları" QSC Bakıdan İstanbula və əks istiqamətdə uçuşlar üzrə bahar aksiyasına başlayıb.**

"Azərbaycan Hava Yolları" QSC-nin Mətbuat xidmətindən bildirilib ki, ekonom sinifdə bir aviabilet əldə edərkən ikincisi aviaşirkət tərəfindən ödənişsiz təqdim olunur. Həmçinin, aksiya çərçivəsində "AZAL Miles" kart sahibləri bu marşrut üzrə hər uçuşa görə ikiqat mil qazanacaqlar.

Təklif "Azərbaycan Hava Yolları" aviaşirkətinin martın 27-dən aprelin 18-dək həyata keçirilən reyslərinə həm bir tərəfə, həm də gediş-gəliş aviabiletlərinin alınmasına şamil edilir.

Aksiya üzrə aviabiletlərin rəsmiləşdirməsi üçün aprelin 18-dək daxil olmaqla AZAL aviaşirkətinin bütün akkreditə olunmuş agentliklərinə və ya call-center@azal.az elektron poçtu vasitəsilə aviaşirkətin çağrı mərkəzinə müraciət edə bilərsiniz.

Aksiya çərçivəsində hədiyyəli aviabiletinin vergi və rüsumları sərnişin tərəfindən ödənilir.

Aksiya çərçivəsində aviabiletlər bir bronda rəsmiləşdirilməli, hədiyyəli aviabiletin geri qaytarılması və ya yenidən təxsisedilməsi ilkin aviabiletlə eyni vaxtda həyata keçirilməlidir.



## Şuşaya turist səfərləri başlayır

### İki günlük turlar üçün bir gün gecələmənin qiyməti 215 manatdır

**Şuşaya turist səfərlərinin qiyməti açıqlanıb. Dövlət Turizm Agentliyinin məlumatına görə, avtobusla transfer, hoteldə yerləşmə, səhər yeməyi və bələdçi müşayiəti xidməti daxil olmaqla 2 günlük turlar üçün bir gün gecələmə ilə 215 manat, 3 günlük turlar üçün iki gün gecələmə ilə 370 manat nəzərdə tutulub.**

2 və 3 günlük turlarda ilk dəfə olaraq Şuşa şəhərində hoteldə gecələmə ilə Füzuli şəhərinin mərkəzindəki şəhər dağıntıları, ilk şəhid abidəsinin ziyarəti, Cıdır düzü, "Vaqif" məqbərəsi, Mehmandarovların evi, Bülbülün ev muzeyi, "Yuxarı Gövhər Ağa" məscidi, "Güllələnmiş Heykəllər" meydançası, Şuşa qalası, Şuşanın "Gəncə" qapıları və "Xarı Bülbül" simvolu, "Qazançı" Kilsəsi, Şuşa "Realnıy" Məktəbi kimi tarixi abidələrlə tanışlıq imkanı təqdim olunur.

(səh.5)

## Etnik təmizləmə insanlıq əleyhinə cinayətdir

### Qərbi Azərbaycan İcması Paşinyana cavab verib



**Qərbi Azərbaycan İcması Ermənistanın Baş naziri Nikol Paşinyana cavab verib.**

İcmanın mətbuat xidmətindən APA-ya verilən xəbərə görə, Ermənistanın Baş naziri Nikol Paşinyan Alman Xarici Əlaqələr Şurasında (DGAP) bu günkü çıxışında Ermənistandan qovulmuş azərbaycanlıların geri qayıtmasına şəraitin yaradılması barədə çağırışları Ermənistanın ərazi bütövlüyü və suverenliyinə təsir edən bir hal kimi qələmə verməyə cəhd edib...

(səh.5)



# Ərdoğanın şansları artır

## Seçkilərə qədər gözlənilməz hadisə olmazsa, mübarizə Kamal Kılıçdaroğlu və Ərdoğan arasında gedəcək



### "Altılı masa" artıq millət iradəsini qərarlarında əksetdirmə qabiliyyətini itirib

**Türkiyədə 14 may tarixinə təyin edilmiş prezident və parlament seçkisi öncəsi maraqlı proseslər yaşanmaqdadır.**

Müxalifət cinahı sayılan və altı partiyanın yer aldığı "Altılı masa"nın martın 2-də keçirilən toplantısında vahid namizədin müəyyən ediləcəyi açıqlanmışdı. Lakin "Altılı masa"nın 12-ci görüşündən də nəticə hasil olmadı və namizəd elan edilmədi.

Yazılı bəyanatda vahid namizədin adının martın 6-da açıqlanacağı qeyd olunmuşdu.

(səh.4)

# Daha 10 ailə doğma yurdlarına köçürülüb

## Ağalıda məskunlaşmış sakinlərin sayı 420-ə çatıb



**Martın 3-də Abşeron rayonunun Masazır kəndindən Zəngilan rayonunun yenidən salınmış Ağalı kəndinə sayca səkkizinci köç karvanı yola salınıb.**

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsindən verilən xəbərə görə, Bakı, Sumqayıt şəhərlərində və Abşeron rayonunda müvəqqəti məskunlaşmış daha 10 ailə - 44 nəfər doğma yurdlarına köçürülüb.

(səh.2)



## Gürcüstan bu ilin yayından PUA istehsalına başlayacaq

**Gürcüstan cari ilin yayından etibarən pilotsuz uçuş aparatlarının (PUA) istehsalına başlayacaq. İl ərzində ölkədə 1000-1500 ədəd kəşfiyyat və döyüş PUA-larının istehsalı nəzərdə tutulub.**

Bu barədə Gürcüstanın müdafiə naziri Cuanşer Burçuladze bildirib. Nazir deyib ki, ilk kəşfiyyat və döyüş PUA-ları artıq Baş nazir İrakli Qaribaşvilinin iştirakı ilə uğurla sınaqdan keçirilib. PUA-lar Tbilisi yaxınlığındakı Gürcüstan-Polşa birgə müəssisəsində istehsal olunacaq. Tikintisi ötən ilin dekabrında başa çatan müəssisənin sahibi 2022-ci ildə Gürcüstanın "Delta" şirkəti və Polşanın "WB Electronics S.A" şirkəti tərəfindən təsis edilmiş "Delta-WB" şirkətidir.

Nazirin sözlərinə görə, birgə müəssisədə "Warmate" kamikadze və "Flyeye" kəşfiyyat PUA-larının istehsalı planlaşdırılır.

## 4 nəfər vəfat edib

### 20 yeni yoluxma faktı qeydə alınıb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 20 yeni yoluxma faktı qeydə alınıb, 24 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən 4 nəfəri vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 828 648 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 818 351 nəfər müalicə olunaraq sağalıb, 10 126 nəfər vəfat edib, aktiv xəstə sayı 171 nəfərdir.

*Ölkədə son sutka ərzində 827, hazırkı dövrədək isə 7 530 018 test aparılıb.*

## Gədəbəy kartofu tapılmır

### Çünki fermerlər daha becərmək istəmir



**"3-4 il əvvəl kartofun qiyməti çox aşağı düşdü. Təsərrüfatla məşğul olanların becərdiyi kartof əlində qaldı. Sata bilmədilər, xarab oldu. Az-çox sahəsi olan kiçik fermerlər və fərdi təsərrüfat sahibləri taxıl səpməyə başladılar".**

Bunu "Şərq"ə açıqlamasında Gədəbəy sakini, rayonun ziyalısı Novruz Əliyev "Niyə Gədəbəy kartofu qəhətə çıxıb" sualını cavablandırarkən deyib. O bildirib ki, ötənilki quraqlığa görə də məhsul aşağı idi:

"Alıcı kəndləri axtarır, kimdə məhsul varsa, alır. Lakin əvvəlki kimi deyil. İstər-istəməz məhsul az olduğu üçün qiymət də yüksəkdir".

**Aygün**



## Mədəniyyət sahəsinə xəyanət bağışlanmamalıdır

### Yeni təyinatlar ümid edirik, müsbət dəyişiklik yaradacaq

(səh.4)



## İrəvanın təkbaşına sülh qərarı verməsi çətin məsələdir

### Ermənistanı çətinliyə salan əsas məqam bu ölkənin iplərinin Rusiya və bəzi Qərb ölkələrinin əlində olmasıdır

(səh.4)